*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 389-395*

https://doi.org/10.62837/2026.3.389

**ƏSMƏR HÜSEYNOVA**
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,***
***filologiya üzrə fəlsəfə doktoru***
***e-mail:* esmer74.17@mail.ru**

# RƏŞAD MƏCİDİN YARADICILIĞI POEZİYA VƏ PUBLİSİSTİKA MÜSTƏVİSİNDƏ

**Xülasə.** Məqalədə Rəşad Məcidin publisistik yaradıcılığı sistemli şəkildə təhlil olunur. Müəllifin ictimai-siyasi proseslərə münasibəti, milli-mənəvi dəyərlərə yanaşması, vətəndaş mövqeyi və üslub xüsusiyyətləri diqqətli şəkildə araşdırılır. Göstərilir ki, Rəşad Məcidin publisistikası informativ çərçivəni aşaraq analitik, ideya-estetik və maarifləndirici xarakter daşıyır. Qeyd olunur ki, müəllif hadisələrə təkcə informasiya prizmasından deyil, həm də mənəvi-psixoloji aspektdən yanaşır və publisistika müstəvisində onu təbliğ edir. Publisistik məqalələrinə şəxsi müşahidələrinin təsiri, oxucu ilə dialoq qurmaq bacarığı, bədii elementlərin zənginliyi yazılarına canlılıq verir və təsir gücünü artırır. Məqalələrində milli-mənəvi dəyərlər, ictimai məsuliyyət, media mühiti, vətəndaş cəmiyyətinin inkişafı kimi mövzular geniş yer tutduğu diqqətə çatdırılır. R.Məcidin aktual hadisələrə münasibət bildirərkən analtik yanaşma nümayiş etdirdiyi, fakt və arqumentlərə əsaslanaraq mühakimələr irəli sürdüyü xarakterizə edilir. Məqalədə gğstərilir ki, müəllifin yazıları sadəcə informasiya xarakterli daşımır, həm də maarifləndirici funksiyaya malikdir. Yaradıcılığını obrazlı ifadələr, metoforik yanaşma və emosional vurğularla zənginləşdirən ədib onun təsir gücünün artmasına nail olur. Poeziyası lirik-psixoloji istiqamətdə inkişaf etməklə, daxili səmimiyyəti və intellektual dərinliyi ilə seçilir. Şeirləri müasir Azərbaycan poeziyasında fərdi səs və üslub xüsusiyyətləri ilə diqqət çəkir. Şairin poeziyasında olan emosional gərginlik sakit intonasiyalarla təqdim olunması mətni daha təsirli edir. Onun yaradıcılığı ədəbi-estetik düşüncə ilə ictimai təhlilin vəhdətinə əsaslanır və müasir Azərbaycan ictimai fikrinin formalaşmasında mühüm rol oynayır. Mövzu dairəsinin genişliyi milli-mənəvi dəyərlər, dövlətçilik və vətəndaş məsuliyyəti, milli yaddaş, mədəniyyət və ədəbiyyatın cəmiyyətdə rolu, ziyalı mövqeyi və ictimai etika kimi vacib keyfiyyətlərlə əhatə olunur. Aparılan təhlil göstərir ki, Rəşad Məcidin poeziya və publisistika müstəvisində yaradıcılığı müasir Azərbaycan ictimai fikrində xüsusi yer tutur. Onun yazıları analitik düşüncə, milli-mənəvi məsuliyyət və ziyalı mövqeyinin vəhdəti əsasında formalaşmışdır.

**Açar sözlər:** Rəşad Məcid, Vətən, poeziya, publisistika, ziyalı mövqeyi

Müasir Azərbaycan ədəbiyyatında, xüsusən də poeziya və publisistika sahəsində yazıçı, jurnalist, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Rəşad Məcidin yaradıcılığı mühüm yer tutur. Onun yaradıcılığı 1980-cı illərdən

etibarən formalaşıb və müasir poetik düşüncənin inkişafında təkrarolunmaz rolu vardır. Poeziyasında Vətən təəssübkeşliyi, insanın daxili aləmi, zamanla dialoq, qan yaddaşı, insanın yaradılışına fəlsəfi baxış, sevgi, tənhalıq hisslərinə şairanə yanaşma kimi mövzular aparıcı mövqeyə malikdir və ədəbiyyatın klassik ənənələrinə, poetik toxunuşlarına sadiq qalmaqla yanaşı, müasir ifadə vasitələrindən, sərbəst şeirdən və simvolik dildən geniş istifadə edir. R.Məcidin yaradıcılıq yolu yeni poetik düşüncənin təşəkkül tapdığı bir dövrə təsadüf edir. Məhz bu dövrdə şablon ifadələrdən uzaqlaşmaq, insani fikirləri dərk etmək, fərdi poetik axtarışlar ön planda formalaşmışdı. R.Məcidin poeziyasında insan problemi əsas mövzulardan biridir. İnsanı cəmiyyətin fonunda deyil, onun öz daxili aləmi ilə təqdim edir. Bu insan obrazı düşünməklə yanaşı həm də tərəddüd edir, yaranan suallara cavab axtarır və nəhayətində məqsədinə nail olur. Onun şeirləri yığcam, emosional olmaqla oxucunu düşüncəyə şövq etmək iqtidarındadır:

Adamı göyə qaldırıb
Sonra ki yerə vururlar
Elə bil sıfır artırıb
Sonra sıfıra vururlar. [1, s.25]

Yaradıcılığında Vətən anlayışı şüar xarakterli deyil, insan taleyi yönümlüdür, Qarabağ mövzusu daha çox fərdi talelər, daxili sarsıntılar prizmasından şərh olunur, Vətəni daima xatırlatmaqla onun insan talelərinə yansıyan mənəvi ağırlığının təsir gücünü qüvvətləndirir: "Rəşad Məcidin vətənpərvərlik mövzusunda yazdığı şeirlər şair-vətəndaş mövqeyinin poetik ifadəsidir. O, ana Vətənlə özü arasındada, xalqı və ölkəsi müstəvisində də geniş mənada bütövlüyün tərənnümçüsüdür. Böyük ideallara həsr olunmuş Vətən şeirlərində həm də yüksək şeiriyyət, böyük bədiilik vardır"[2, s.25]. Yaddaşlarda yaşayan ağrı, yarımçıq qalan talelər, boşuna itirilmiş zaman R.Məcid yaradıcılığının əsas elementidir. Ədib xalqın yaddaşına həkk olan itki anlayışını fiziki məğlubiyyət kimi deyil, mənəvi boşluq kimi təqdim edir. Şair Vətən anlayışını Qarabağ mövzusunun ayrılmaz tərkib hissəsi kimi – mənəvi borc, tarixi məsuliyyət, yaddaşın silinməməsi, insan taleyində qalan iz fonunda şərh edir.

R.Məcid şeirlərində lirikanı sadəcə hisslərlə ifadə etmir, onu düşüncəyə də yansıdır. Bəzən onun poeziyasında açıq qalan fikirlərə rast gəlinir ki, bu da müəllifin oxucusunun düşündürmək cəhdi, cəmiyyətdə aktiv olmaq çağırışı kimi önə çıxır:

Beyninə girsəydim bir saatlığa
Bütün suallara cavab tapardım
Bu qəliz, mürəkkəb tapmacaların
Acmasını səndən qabaq tapardım. [3, s.174]

Müəllif üçün zaman axıb gedən bir proses kimi deyil, insanın daxilində yığılan yük kimi də qiymətlənir. Bəzən dünənlə bu gün bir şeirin içində qarşılaşır, mənfi və müsbət qütblər kimi bir bəndə sığmır, bəzən də bir-birinə qarışıb ümman olur. Onun lirik qəhrəmanı cəmiyyəti idarə edən, lakin daxilən tənha insandır. Şair bu tənhalığı

zəriflik kimi təqdim etmir, əksinə onun daxili dərinliyini, öz-özünə verdiyi hesabatını ön plana çəkir. Sərbəst şeirlərində intizama, qayda-qanuna birmənalı olaraq əməl olunur, misralar daxili ritmlə, məna axını ilə bir-birini tamamlayır, forma və məzmuna tabe olur. Yaratdığı hər ədəbi nümunədə sözün müqəddəsliyi və məsuliyyətli olması şairə görə şüardır. R.Məcid müasir Azərbaycan poeziyasında intellektual səviyyədə zənginləşdirir, oxucunu inkişafa, təfəkkürə yönəldir. Onun lirik qəhrəmanı sadə, lakin dərin poetik düşüncəyə malik, düşünən, axtarış edən, tənha daxili dialoq yaradan insan tipidir: "Rəşadın "Çiyələk qadın" kitabındakı şeirlərin hamısı sevgidəndir. Təbiət gözəlliklərini şeirlərində özünəməxsus orijinal bədii təsvir vasitələri ilə əks etdirən Rəşad sevgi şeirlərində də bənzərsizdir. O mənada ki, yaşanılmış hisslərini qələmə alır. Biz bu hisslərin "ərazisində" vüsal-hicran dolaylarında yol gedən, bəzən uğursuzluğa düçar olub göz yaşları içində qıvrılan, bəzən də sevdiyini mələk sanan məcnunvari bir sitayişin şahidi oluruq. Bir sözlə, onun sevgi qəhrəmanını bu müqəddəs, bu ali hissin sözün yaxşı mənasında əsiri olduğunu görürük. Sevgi varsa, yaşamağa dəyər! Sev-ucalarsan! Sev-mənən zəngin olarsan! Sev-gözəllik duyğusuyla yaşayar, yaradarsan! Sevdiyin qadına pərəstişdə, heyranlıqda bulun, onu ürəyinin taxtı-tacı bil, həyat sənin üçün gözəlləşər, ülviləşər..." [4, s. 9].

Müasir Azərbaycan ədəbiyyatında poeziya daim yenilənən, zamanın ruhuna, müasir təfəkkürə uyğunlaşan sahədir. Yazılarında ədəbiyyatın mənəvi yükünü daşımaqla onun estetikasını da qoruyan simalarından hesab olunur. Ədibin yaradıcılığı və ədəbi fəaliyyəti müasir dövrün oxucusunu düşünməyə, düşdüyü çətinlikdən çıxış yolu tapmağa vadar edir. Onun poeziyası Azərbaycan ədəbiyyatına töhfə olmaqla müasir insan obrazının mənəvi portretini yaratmaq baxımından da xüsusi əhəmiyyət kəsb edir və milli poetik ənənə ilə çağdaş düşüncə tərzinin sintezini özündə ehtiva edir: "R.Məcidin şeirlərində ən mühüm cəhət fikirlərini cilalaya bilmək, poeziya ritminə köklənmək səriştəsidi. Əgər predmet vətən gözəlliklərinin vəsfidirsə, bu təsvir son məqamlarına, təsvirlərinə, mənalarına qədər sərgilənmiş olur. Amma ağla gələn hər şeyin kor-koranə ifadəsi ilə deyil, ilhamı zorlamadan, fikrin misra-misra bir-birindən doğması, əl-ələ verib uçunması mənasında. Bəlkə ona görə ki, R.Məcidin şeirlərindəki obrazlar bədii söz sənətimizin ilkin qatlarından, şifahi xalq ədəbiyyatımızdan ayrılıb gəlir və bu ilkinlik deyilən nəsnə nə əcayib bir duyğudursa – təzə-tər yaşamı, əl dəyilməmiş bakirəliyi ilə - oxucuya həm də özü boyda təmiz yaşam stixiyası təlqin eləyir. Şeirdəki saflığa fikir verirsinizmi?! Necə ki, müəllifini dünya mənzərələri önündə ilahi lallıqda saxlayır, oxucunu da eləcə, həmin saflıq önündə sükut içində buraxır". [5]

R.Məcidin yaradıcılıq yolu yeni poetik düşüncənin təşəkkül tapdığı bir dövrə təsadüf edir. Məhz bu dövrdə şablon ifadələrdən uzaqlaşma, insanın daxili aləmini dərk etmək, fərdi poetik axtarışlar ön planda formalaşmışdı. Bu baxımdan, şairin poeziyasında insan problemi əsas mövzulardan biridir. R.Məcid insanı cəmiyyətin

fonunda deyil, öz daxili aləmi ilə təqdim edir. Bu insan obrazı düşünməklə yanaşı tərəddüd edir, özünün iç dünyasında yaranan suallarına cavab axtarır və tapır. Onun lirik qəhrəmanı öz varlığını dərk etməyə çalışan, düşüncə və fikirləri haqlı olan obrazdır. Çərçivəyə salınmayan qəhrəmanı onun poeziyasında fəlsəfi dərinlik qazanmağa nail olur. Zaman və tarixi yaddaş Rəşad Məcid poeziyasının ayrılmaz anlayışıdır və ideoloji çağırışlardan uzaq, fərdi talelər, mənəvi bağlılıq fonunda təqdim edilir.

Publisistika ictimai şüurun formalaşmasında, sosial proseslərin istiqamətləndirilməsində və vətəndaş mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynayan yaradıcılıq sahəsidir. Müasir informasiya cəmiyyətində publisistikanın funksiyası yalnız hadisələri operativ şəkildə çatdırmaqdan ibarət deyil; o, eyni zamanda hadisələrin mənasını açmalı, cəmiyyət üçün əhəmiyyətini şərh etməli və düşüncə istiqaməti formalaşdırmalıdır.

Müasir Azərbaycan publisistikasında fərdi üslubu və prinsipial mövqeyi ilə seçilən qələm adamlarından biri Rəşad Məcid hesab olunur. Onun yaradıcılığı milli kimlik, dövlətçilik düşüncəsi, mənəvi dəyərlər və ictimai məsuliyyət kimi məsələlərin işıqlandırılması baxımından diqqətəlayiqdir. Bu səbəbdən onun publisistik fəaliyyəti elmi tədqiqat obyekti kimi aktualdır. R.Məcid publisistik yazılarında ədəbiyyatın cəmiyyətdəki rolu, milli-mənəvi dəyərlər və sözə məsuliyyətlə yanaşma daha qabarıqdır. Uzun illər mətbuatda, ədəbi mühitdə fəal çalışması onun yaradıcılığına intellektual dərinlik gətirmişdir. Müasir Azərbaycan poeziyasının tanınmış simalarından olmaqla gənc qələm sahibərinə müsbət təsir göstərən ədəbi şəxsiyyət, poeziya və publisistikanı paralel şəkildə inkişaf etdirən müəlliflərdəndir: “Onun publisistikası, təbii ki, real həyatdan nəşət tapır, konkret hadisə və əhvalatlardan qidalanır. Və bəzən də xəyal pərvazlarında ömrün və taleyin o taylarına, yaddaşın məhrəm ünvanlarına qanadlanır. Bu da onun publisistikasına şirin bir romantika qatır. O, qələmə aldığı adi məişət hadisələrindən tutmuş geniş rezonanslı ictimai-siyasi problemlərə qədər öz müdaxiləsi, rəy içində rəy formalaşdırması, münasibət içində münasibət yaratması, mövqe içində mövqe nümayiş etdirməsilə daha çox yadda qalır. Belədə o, əsl analitik kimi qələmə aldığı hadisələrə doğru-düzgün qiymət verir, oxucunu öz mövqeyinə, fikrinə, tendensiyasına inandırıb tabe edə bilir”[6, s. 9]. Müasir dövrdə informasiya bolluğu şəraitində cəmiyyətin analitik düşüncəyə ehtiyacı artır. Rəşad Məcidin yazıları hadisələri sistemli təhlil etməsi ilə fərqlənir. O, problemləri yalnız göstərmir, həm də onların həlli istiqamətində düşüncə təklif edir. Bu baxımdan müəllifin publisistik fəaliyyəti yalnız jurnalistika çərçivəsində deyil, həm də ictimai-mədəni fenomen kimi qiymətləndirilə bilər.

Bu gün ədəbi prosesdə özünəməxsus yeri olan ədəbiyyat nümayəndələrindən biri də Rəşad Məcid hesab olunur. Aparılan tədqiqatın məqsədi Rəşad Məcidin publisistik yaradıcılığının ideya-məzmun xüsusiyyətlərini, üslub çalarlarını və

ictimai əhəmiyyətini kompleks şəkildə təhlil etməkdir. Rəşad Məcid publisistikası müasir Azərbaycan cəmiyyətində ideya istiqaməti formalaşdıran, ictimai şüuru zənginləşdirən və düşüncə mədəniyyətini inkişaf etdirən mühüm yaradıcılıq sahəsi kimi qiymətləndirilə bilər. Onun poeziyası lirik-psixoloji istiqamətdə inkişaf edən, daxili səmimiyyəti, lakonik ifadə və intellektual dərinliyi ilə seçilən yaradıcılıq nümunəsidir.

**АСМАР ГУСЕЙНОВА**
Институт литературы имени Низами Гянджави,
Национальная академия наук,
кандидат филологических наук
e-mail: esmer74.17@mail.ru

## ТВОРЧЕСТВО РАШАДА МАДЖИДА В ОБЛАСТИ ПОЭЗИИ И ПУБЛИЦИСТИКЕ.

### Резюме

В статье систематически анализируется журналистское творчество Рашада Маджида. Тщательно исследуются отношение автора к социально-политическим процессам, подход к национально-нравственным ценностям, гражданская позиция и стилистические особенности. Показано, что журналистика Рашада Маджида выходит за рамки информационного подхода и носит аналитический, идеологически-эстетический и воспитательный характер. Отмечается, что автор подходит к событиям не только с информационной точки зрения, но и с морально-психологической, продвигая их на уровне журналистики. Влияние личных наблюдений на его журналистские статьи, умение устанавливать диалог с читателем и богатство художественных элементов придают его произведениям живость и усиливают их воздействие. Отмечается, что такие темы, как национально-нравственные ценности, социальная ответственность, медийная среда и развитие гражданского общества, занимают широкое место в его статьях. Характеризуется, что Р.Маджид демонстрирует аналитический подход при выражении своего отношения к текущим событиям и выдвигает суждения, основанные на фактах и аргументах. В статье показано, что произведения автора не только информативны, но и выполняют воспитательную функцию. Обогащая своё творчество образными выражениями, метафорическим подходом и эмоциональными акцентами, писатель добивается усиления своего воздействия. Развиваясь в лирико-психологическом направлении, его поэзия отличается внутренней искренностью и интеллектуальной глубиной. Его стихи привлекают внимание в современной азербайджанской поэзии своими индивидуальными голосами и стилистическими особенностями. Эмоциональное напряжение в поэзии поэта представлено спокойными

интонациями, что делает текст более эффективным. Его творчество основано на единстве литературно-эстетической мысли и социального анализа и играет важную роль в формировании современного азербайджанского общественного мнения. Широта тематики охватывает такие важные качества, как национально-нравственные ценности, государственность и гражданская ответственность, национальная память, роль культуры и литературы в обществе, положение интеллектуальной и общественной этики. Анализ показывает, что творчество Рашада Маджида в области поэзии и журналистики занимает особое место в современном азербайджанском общественном мнении. Его труды были сформированы на основе аналитического мышления, национально-нравственной ответственности и единства его интеллектуальной позиции.

**Ключевые слова:** Рашад Маджид, Родина, поэзия, публицистика, интеллектуальная позиция

**Asmar Huseynova**
**Nizami Ganjavi Institute of Literature,**
**National Academy of Sciences,**
**candidate of philological sciences**
**e-mail: esmer74.17@mail.ru**

## RASHAD MAJID'S WORK IN THE FIELD OF POETRY AND PUBLICISTM

### RESUME

This article systematically analyzes the journalistic work of Rashad Majid. It thoroughly examines the author's attitude toward socio-political processes, his approach to national and moral values, his civic stance, and his stylistic features. It is demonstrated that Rashad Majid's journalism goes beyond a purely informational approach and is analytical, ideological, aesthetic, and educational in nature. It is noted that the author approaches events not only from an informational perspective but also from a moral and psychological one, advancing them at the journalistic level. The influence of personal observations on his journalistic articles, his ability to establish a dialogue with the reader, and a wealth of artistic elements imbue his works with vibrancy and enhance their impact. It is noted that topics such as national and moral values, social responsibility, the media environment, and the development of civil society occupy a prominent place in his articles. It is characterized that R. Majid demonstrates an analytical approach when expressing his attitude toward current events and advances judgments based on facts and arguments. The article demonstrates that the author's works are not only informative but also educational. By enriching his work with figurative expressions, metaphorical approaches, and emotional accents, the writer achieves a stronger impact. Developing along lyrical and psychological lines, his poetry is distinguished by its inner sincerity and

intellectual depth. His poems attract attention in contemporary Azerbaijani poetry with their individual voices and stylistic features. The emotional tension in the poet's poetry is conveyed through calm intonations, which enhances the text's effectiveness. His work is based on the unity of literary and aesthetic thought and social analysis and plays an important role in shaping modern Azerbaijani public opinion. The breadth of the subject matter encompasses such important qualities as national and moral values, statehood and civic responsibility, national memory, the role of culture and literature in society, and the status of intellectual and public ethics. The analysis reveals that Rashad Majid's poetry and journalism occupy a special place in contemporary Azerbaijani public opinion. His works were shaped by analytical thinking, national and moral responsibility, and the unity of his intellectual position.

**Keywords:** Rashad Majid, Homeland, poetry, publicist, intellectual position

## Ədəbiyyat siyahısı

1. Məcid R. Roman (sevgi şeirləri), Qisas, Bakı, Qanun Nəşriyyatı, 2014, s. 25, 136 s.
2. Həbibbəyli İ. Bütün yönləri ilə yaradıcı. Bakı, “Elm və təhsil”, 2014, s.25, 104 s.
3. Məcid R. Bir də gəlməyəcək..., Tapardım, Bakı, “Təhsil”, 2015, s. 174, 512 s.
4. Yusifli V. Rəşad Məcidin şeir dünyası, Ədəbiyyat qəzeti, 10 avqust, 2024, s.9, 30 s.
5. Akimova E. 525-ci qəzet - Pərdəarxası ömrün gerçəkləri
6. Rəşidzadə L. Ürəklə yazılanlar, Ədalət, 2019, 2 noyabr, s.9

**Rəyçi:- Filologiya üzrə fəlsəfə doktoru, dosent Qürbət Mirzəzadə**